UOT 18
DOI:10.30546/3006-0346.2024.5.83.086

# MƏHƏMMƏD FÜZULİNİN "MƏTLƏÜL-ETİQAD" VƏ "SƏHHƏT VƏ MƏRƏZ" ƏSƏRLƏRİNDƏ RUHUN VARLIĞI VƏ RUHUN İNSAN HƏYATINDA ROLU

**RAHİLƏ QURBANOVA**
*ADPU-nun Fəlsəfə və sosial elmlər kafedrasının müəllimi*
*E-mail: rahila.qurbanova@mail.ru*

Azərbaycanda fəlsəfi fikrin inkişafında görkəmli şair, filosof və mütəfəkkir Məhəmməd Füzulinin xidmətləri böyük olmuşdur. Dahi mütəfəkkir Azərbaycan ədəbiyyatında lirik şair kimi məşhur olsa da, öz dövrünün ideologiyasını əks etdirən elmi, dini və fəlsəfi məzmun daşıyan qiymətli əsərlərin də müəllifidir. Şair əsərlərini üç dildə - türk, fars və ərəb dillərində yazmışdır. Qəzəllərində, qəsidələrində, rübailərində və "Bəngü-badə", "Leyli və Məcnun", "Söhbətül-əsma", "Meyvələrin söhbəti", "Hədiqətüs-süəda", "Həft cam", "Ənisül-qəlb", "Səhhət və mərəz", "Rindü-Zahid", "Mətləül-etiqad" əsərlərində fəlsəfi düuyğu və düşüncələrini əks etdirmişdir. Bu da onun dünyagörüşündən irəli gəlir, çünki Füzuli antik yunan və Şərq fəlsəfəsi ilə yaxından tanış olmuş, onun yaradıcılığına Falesin, Heraklitin, Anaksaqorun, Empodoklun, Pifaqounr, Demokritin, Aristotelin, Platonun, Sokratın, Əl-Fərabinin, İbn Sinanın, Nəsrəddin Tusinin və başqa filosofların böyük təsiri olmuşdur. "Füzuli dövrünün ən böyük şairi olduğu kimi, həm də ən böyük alimi idi. Özü dediyi kimi, əziz ömrünü zamanın "əqli və nəq"l, "hərəki və həndəsi" elmlərini dərindən öyrənməyə sərf etmişdir" (4,12).

Füzuli yaradıcılığının özünəməxsus xüsusiyyətləri var. Şair fəlsəfi yaradıcılığında, sevgini, məhəbbəti, gözəlliyi Tanrının və onun yaratdıqlarında birləşdirərək vəhdət yaradır. Eyni zamanda yaradıcılığında insan gözəlliyi ilə ilahi gözəlliyin vəhdətini əks etdirir. İnsanda ilahi eşq, ilahi sevgi, ilahi məhəbbət, ilahi gözəllik hisslərini aşılayır və Yaradana çatmağı, ona qovuşmağı ən yüksək ali məqam hesab edir.

Dahi mütəfəkkir "Mətləül-etiqad" və "Səhhət və mərəz" fəlsəfi əsərlərində yaradılış haqqında, aləmin və insanın yaradılması, insanın vəzifələri, ruh və ölüm, ruhun ölməzliyi haqqında fəlsəfi baxışlarını, düşüncələrini əks etdirmişdir. Füzuli əsərlərində insanın mənəvi inkişafına və onun kamillik səviyyəsinə çatmasına yüksək qiymət vermiş, sevgini, xoşbəxtliyi insan həyatının ən yüksək zirvəsi hesab etmişdir. Sairin fikrinə görə, yalnız kamil insan Allahla birləşə bilər, insanın kamil olması üçün, ilk növbədə onun ruhu inkişaf etməlidir. Ruhu inkişaf etmiş insan, yalnız o məqama çata bilər. Füzuli insanın mənəvi inkişafını yüksək dəyərləndirir.

Füzulinin yaradıcılığında "Mətləül-etiqad" fəlsəfi əsəri xüsusi yer tutur. "Mətləül-etiqat" da yunan fəlsəfəsinə dərindən bələd olduğunu büruzə verir. Əsər bir çox yunan mütəfəkkirləri haqqında dolğun və yığcam, həm də əsasən düzgün məlumat verdiyindən o, bir növ fəlsəfə tarixinə aid olan əsərə, ayrı-ayrı filosoflar və cərəyanlar haqqında biliklər verən məlumat kitabçasına, ensiklopediyaya oxşayır". (6, 50) "Mətləül-etiqat" əsəri antik yunan və orta əsrlər Şərq fəlsəfəsinə dair zəngin mənbədir. Çünki Füzuli burada təkcə filosofların fəlsəfi görüşlərini və fəlsəfi fikirlərini əks etdirməmiş, həmçinin onları müqayisəli şəkildə təhlil edərək öz fikirlərini bildirmişdir. Dahi mütəfəkkir yazır ki, "müxtəlif əqidə sahiblərinin təriqətləri ilə tanış oldum onların faydasını mənimsədim. Zaman tələb edir ki, bunların mövcudiyyatı qorunub saxlansın və əsrari gizli qalmasın. Buna görə onları mühafizə etmək üçün dörd rüknü (sütunu) olan bir ev tikdim; belə ki, onun hər bir tərəfində iman bağına açılan bablar (qapılar) vardır". (2, 82) Füzuli bu binanı "Mətləül-etiqad" adlandırır və birinci rükn elm, bilik haqqında, ikinci rükn aləmin mənşəyi, üçüncü rükn Tanrının varlığına aid biliklər, dördüncü rükndə isə peyğəmbərliyə aid biliklər haqqında filosofların fikirlərini müqayisəli təhlil etmişdir. "(Bəziləri) demişlər ki, Tanrının sevdiyi birinci şey bilikdir və o, (Tanrı) demişdir: "Mən gizli bir xəzinə idim və istədim ki, məni tanısınlar, buna görə məxluqatı yaratdım" (2, 84). Şair "Mətləül etiqad" əsərində yazır ki, biliyə aid olan hər bir şey ibadətdir, insan hər bir işi ağıl və dərk edərək etdiyinə görə Allah onu başqa varlıqlardan üstün yaratmışdır. Ağıllı insan özünün yaranma səbəbini araşdırır, nə üçün yarandığını, hardan gəlib hara gedəcəyini dərk edir. İnsanlar eynidir, yalnız onlar arasında bilik fərqi var. Xeyirli biliyin olması insanın ruhi inkişafı ilə bağlıdır. Şair biliyi iki yerə ayırır dünya işlərinə aid olan biliyi etiqad və dini biliyi isə ibadət adlandırırdı. Əsl biliyin ilham və vəhy yolu ilə gəldiyini, bunun da yalnız peyğəmbərlərə və

övliyalara xas olduğunu bildirir. Füzuli eyni zamanda qeyd edir ki, aləmin intizamı pozularsa, yalnız əqlin vasitəsilə qaydasına qoymaq olar. Şair aləmi bədənə, aləmin əhalisini bədəndəki qüvvələrə, iblisi təbiətə, peyğəmbərləri isə əqlə bənzədirdi. Onun fikrinə görə, aləmin intizamını yalnız peyğəmbərlər qaydasına qoya bilər.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli aləmin mənşəyi haqqında və ilkin yaranan nə olub məsələsində antik yunan və şərq filosoflarının fikirlərini müqayisəli şəkildə verir, sonda öz fikirlərini söyləyir. "Ağıllı adamlar dünyanın mənşəyi haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Fales demişdir: ilk ünsür sudan ibarətdir, suyun hər bir şəkilə düşmək qabiliyyəti olduğuna görə, onun sıxlaşıb bərkiməsindən yer, durulmasından (incələşməsindən) od və hava əmələ gəlmişdir. Göy isə odun tüstüsündən törəmişdir" (2, 88). Anaksoqor və Empedol da Falesin fikrini qəbul etmiş, lakin Empedokl demişdir ki, "ilk ünsür mütləq bəsit (deyil), içərisində məhəbbət (cəlbedici) və qələbə (rəddedici) olan birləşmədir". (2, 88) Empedoklun fikrini Heraklit və Pifaqor qəbul etmiş, amma Pifaqor demişdir: Tanrı əql ilə ruhu eyni zamanda yaratmış, sonra isə aşağıdakıların hamısını yaratmışdır. Ərəstun isə aləmin yaranması haqqında deyir: "İlk ünsür əvvəlcə yox imiş, sonradan əmələ gəlmişdir. Onun yoxluqdan vücuda gəlməsi hərəkətdir. Mövcudiyyati hərəkət vasitəsilə olan hər bir şeyin qalıb yaşaması hərəkət vasitəsilə olmalıdır, əvvəlcə (o), üç səmtdə, yəni boyu (uzunluq), en və dərinlik istiqamətində hərəkət edərək cisim olmuşdur. Sonra bütövlükdə deyil, (bir hissəsi) dairəvi şəkildə hərəkət etmişdir... Sonra hərlənən hissənin surətinin artması nəticəsində hərəkətsiz hissədə istilik, qızışma və yumşalma əmələ gələrək ərimiş və sonra oda çevrilmişdir. Lakin od fələyə nisbətən daha az sürətlə hərəkət etmiş və bu hərəkət nəticəsində hərəkətsiz sahənin bir hissəsində hərəkət əmələ gəlmiş və həmin hissə havaya çevrilmişdir. Hərəkətsiz sahənin hava ilə toxunan hissəsi olan cisim ilk hərəkət edən (fələk)dən uzaq olduğuna görə hərəkət etməmiş və bu hərəkətsizlik nəticəsində soyumuşdur. Sonra hava ilə qonşu olduğuna görə rütubətlənərək suya çevrilmişdir. Ortadakı hissə isə fələklərdən uzaq olduğuna görə hərəkət və istilikdən heç də istifadə edə bilməmiş və hərəkətsiz, soyuq torpağa çevrilərək mürəkkəb varlıqlar ondan əmələ gəlmişdir" (2, 92). Şair bu filosofların fikirlərini təhlil edəndən sonra yazır: Peyğəmbərlər də deyir: "Tanrının ilk yaratdığı şey ağıldır" Tanrı ilk ağlı yaradıb, sonra göy cismlərini, bitkiləri, heyvanları, sonda insanı yaradıb və Tanrının yaratdıqları içərisində ona ən yaxın olanı insandır. Füzuli insanları iki yerə bölür, birinci yerdə həqiqət axtarışında olan insanlar, bunları "müdrik tədqiqatçı müəllim" adlandırmışdır. İkinci yerdə bütün ömürlərini təlqin etməyə həsr edən insanlardır ki, bunları isə "təqlitçilər" adlandırmışdır. Eyni zamanda qeyd edir ki, Tanrı əvvəl ruhları, sonra cismləri yaradır və ruhlara deyir, mən sizin Tanrınızam; bəziləri qəbul edir, bəziləri isə qəbul etmir. Ruhlar yerə qayıdanda Tanrını qəbul edənlər mömin, Tanrını inkar edənlər isə kafir olurlar. "Belə bir gün Yövmül-misaq" (Əhdipeyman günü) adlanmışdır. Cəsədlər arasındakı birləşmə və ayrılma həmin günün saziş və ayrılması nəticəsidir. Bu isə (Peyğəmbərlərin) belə bir sözünə uyğundur ki, "Ruhlar səfərbər edilmiş ordudular, Həmin orduların təsdiq edənləri bir-biri ilə birləşmiş, inkar edənləri isə bir-biri ilə ziddiyyətə girmişdir" (2, 94).

Füzuli insanın mənşəyinin ruh və bədəndən ibarət olduğunu, bədənin nütfədən yarandığını, birinci sümüklərin, damarların, sinirlərin inkişaf etdiyini və bədən formasını alandan sonra isə ruhun ora daxil olduğunu bildirir. Ruhun incə, müqəddəs, ülvi, müstəqil, cismani, dərk edilməz olduğunu, bədənin isə kobud və ruhun aləti olduğunu, insan öləndən sonra ruhun yaşadığını və ruhla bədənin birləşməsindən isə şəxsiyyətin formalaşdığını qeyd edir. Lakin insanın bədən üzvüləri və hissləri yaxşı və yaxud pis işlər görməyə qabildir. Əgər bədən ruhun istəyi ilə hərəkət edərsə, pis əməllərdən uzaq olar, yox əgər bədən ruha üstün gələrsə, onda bədənin istəyi ilə hərəkət edərək ən pis əməllərlə məşğul olar. Bədən ruhu özünə ona görə cəzb edir ki, bədən ağırdı, ruh isə yüngüldür. Ağır şey yüngül şeyi özünə tərəf rahat çəkir, ruh isə təbiətən yuxarıya qalxmağa, bədən isə aşağıya düşməyə meyillidir. Ona görə də ağır şeyin yüngül şey ilə birlikdə aşağı düşməsi, yüngül şeyin ağır şeylə yuxarı qalxmasından asandır. Bədənin inkişafı təbii haldır, lakin ruhu inkişaf etdirmək lazımdır. Çünki ruh təmiz və çox şeydən xəbərsizdir. Onun öyrənməyə ehtiyacı var, əgər onu öyrədən olmasa, inkişaf etməz, olduğu kimi qalar və kamillik məqamına çata bilməz. "Deməli, insanı inkişafa doğru yönəltmək lazımdır. Belə ki, insanlardan birisi Tanrının mərhəməti və onun verdiyi istedada nail olaraq vəhy və ilham almaq səciyyəsinə malik olsun və beləliklə, ruhların

öyüd-nəsihət vasitəsilə təmizə çıxarsın və bədənləri (dini) tapşırıqlar vasitəsilə tərbiyələndirsin. Belə bir kamil şəxs peyğəmbərdən, onun məsləhət üçün verdiyi (qanun) isə şəriətdən ibarətdir" (2, 118). Füzuli bu əsərdə peyğəmbərliyə yüksək qiymət verir və yazır ki, peyğəmbərlik dünya işlərini nizama salan və Tanrı ilə insanlar arasında əlaqə yaradandır. İnsanı inkişafa doğru apara bilən və ruhu kamillik səviyyəsinə çatdıra bilən yalnız peyğəmbərlər ola bilər. Ona görə də insanlar peyğəmbərlərin dediklərinə əməl etməli və onları təqlid etməlidir. Tanrı insanı başqa varlıqlardan üstün yaratmışdı və insana ağıl, iradə, azadlıq, sərbəstlik vermiş və təkmilləşməsini, kamilləşməsini ondan tələb etmişdir. Tanrı insanlar içərisindən ən dürüst, sağlam düşüncəli, sədaqətli, inanılmış, ləyaqətli şəxsləri peyğəmbər seçmişdir. Şair yazır ki, insan təbiətən cismani şeylərdən, maddi aləmdən həzz alır, pis işlərlə məşğul olur. İnsan dünyaya gələndə onun bu haqda biliyi olmadığı üçün çoxlu səhvlər edir, ruh təkmilləşib, yüksək səviyyəyə çatanda bədənlə əlaqəsini kəsir və ən yüksək məqama çatır, Tanrıya qovuşur. Ruh təkmilləşmədən bədəni tərk edərsə, bu, onun cəhənnəmi deməkdir.

Füzuli "Mətləül-etiqad" əsərində renkarnasiyadan, insan öləndən sonra ruhun yenidən bədənə təkrarən daxil olmasından danışır. Ruhların bəziləri kecmişdə heç bir günah etmədiklərinə görə bədəndən ayrıldıqdan sonra göyə qalxırlar, özlərinin "fələklərdəki" yerlərində yerləşirlər. Bəziləri isə günahlar etdiklərinə görə yuxarı qalxmaq istədikləri zaman mələklər onlara mane olur və yenidən yerə qayıdırlar. "Xoşbəxt (ruh) bir cisimdən köçür və ondan yüksək bir cisimdə yerləşir. Buna Nəsx (ruhun yerdəyişməsi) deyilir. Həqiqət belədir ki, bu məzhəb batildir, çünki, onların dediyinə görə, dövrlər inkişafa çatmaq rütbəsinin dərəcələrindən ibarət olub, inkişafa çatmaq isə imkan daxilindədir" (2, 95). Hətta belə bir sual verir ki, bədəndə ruh əzab çəkdiyini bilə-bilə necə olur ki, yenidən bədənə qayıdır. Cavabında yazır, ruh bədəndə əziyyət çəkir, çünki bədən qurluşuna və hadisələr qarşısında dəyişkən olduğuna görə ruhdan fərqlənir. İnsan öləndən sonra ruhun bədənə qayıtması onun təkmilləşməsidir, əgər ruh əzaba layiqdirsə, onda bədən ən pis işlərlə məşğul olacaq, çünki bədənlə ruh bir-birinə qırılmaz zəncirlə bağlıdır. Yox, əgər ruh mükafata layiqdirsə, onda bədən ruhun ən gözəl məkanı olacaq, çünki o, burada öz arzularına çatmasını təmin edəcək. Füzuli bu əsərdə göstərir ki, ruhun inkişafının yeni mərhələyə daxil olması, özünü dərk etməsidir, kamilləşməsidir, Ali varlıq, İlkin başlanğıc və ya Allahla birləşə bilməsidir. Bu məqama çatmaq üçün isə Ruh inkişaf səviyyəsinə malik olmalı və təkrar-təkrar bədənə qayıtması zəruridir.

Məhəmməd Füzuli "Səhhət və Mərəz" fəlsəfi əsərində də ruhun bədəndən əvvəlki və sonrakı varlığından, onun bədəndəki rolundan bəhs edir. Həmçinin ruhun maddi aləmdə vaxtı tamam olandan sonra yenidən İlahi aləmə qayıtmasından söhbət açır. Bu əsərdə diqqəti cəlb edən maraqlı məsələlərdən biri də insan bədənində xeyir və şər qüvvələrinin, sağlamlıq və xəstəliyin mübarizə aparmasıdır.

Füzuli bu əsərdə insan bədəninin daxili və xarici üzvlərini, onların bir-biri ilə münasibətlərini də təsvir etmişdir. Əsərdə göstərir ki, ruh bədənə daxil olduqdan sonra, yəni ruh və bədən birləşdikdə səhhət yaranır. Füzuli insan bədənini ayrıca bir məmləkət, bir ölkə kimi təsvir edir. Bu məmləkətdə dörd qardaş Qan, Səfra, Bəlğəm və Sevda çox mehriban yaşadıqları üçün ruh özünü burada xoşbəxt hiss edir. Bədən diyarı ona çox xoş gəlir və buranı gəzməyə başlayır. Ürək şəhərini bəyənir, burada yaşamağı qərara alır və bu şəhərində məclis keçirir. Bu məclisə Sevda, Qan, Bəlğəm və Səfranı dəvət edir, onlar yeyib-içəndən sonra lovğalanıb özlərini öyürlər. Bir-birindən inciyən tayfalar kənara çəkilib, ruha itaət etməkdən boyun qaçırırlar. Ruh da Ədavət, Qorxu və Qəmə hökm edir ki, Ürək şəhərini tərk etsinlər. Onlar da Ruhun əmrini yerinə yetirirlər. Bir müddətdən sonra narazı olan Ədavət, Qorxu və Qəm bunun səbəbini Səhhətdə görürlər. Belə qərara gəlirlər, Səhhətin qayda-qanunu pozsunlar, ona pislik etsinlər. Hərə öz tayfa başçılarını köməyə çağırır. Ədavət -Yalan, Kin, Paxıllığı, Qorxu - Heyrət, Dəhşət, Naəlacılığı, Qəm - Möhnət, Həsrət, Ümidsizliyi çağırıb Ürək şəhərinə hücm edirlər. Bu hadisədə Ruh çox pis olur, Ürək şəhərinin daravazasını bağlayıb orada oturur və Ruhun sevinci, şadlığı sona çatan an Ürək şəhəri Qəmin ixtiyarına keçir. Ruhun da dostları öz dostlarını Fərəh Hüsnü, Məhəbbəti Eşqi, Ümid Əqli köməyə çağırır. Ruh Hüsnü görəndə ona aşiq olur. Ruh Hüsnü tanımaq üçün eşqdən kömək istəyir. Eşq görür ki, ruh bu işdən xəbərsizdi, Şəfa güzgüsünü Ruha verir. Ruh da öz əksini güzgüdə görəndə heyrətlənir, xəyallarla yaşayan ruh Hüsnə necə qovuşmağın yolunu axtarır və Eşqdən çarə istəyir. Eşq bu yolun çətin olduğunu deyir, lakin çə-

tinliyə baxmayaraq Ruh oranı görmək istədiyini bildirir. Eşq onu Məşuqlar səhrasına, sonra isə Aşiqlər ölkəsinə aparır. Gözəl yerlərdən keçərək gəlib bir qaranlıq yerə çatırlar. Ruh görür ki, bu həmin bədən ölkəsidir. Hər yer xarabalığa çevrilib, bunun səbəbini Eşqdə görür. Eşq isə bütün günahların Ruhun özündə olduğunu deyir.

" Ey Ruh, bu lövb şəfa aynasıdır. Nəzər əhlinin şəklini özündə əks etdirəndir. Burada gördüyün birinci surət sən idin, indi də gördüyün surət sən özünsən. Əvvəlcə özünə baxdığın zaman qafil idin! Özünü tanımayıb öz arzunla yüyürürdün. Axırda özünə çatdın! Həm Aşiqliyə məzhər sənsən, həm də Məşuqluğa zinət sənsən!." (2, 78) Ruh bədənə daxil olan zaman saf və hər şeydən xəbərsiz olduğu üçün maddi aləmə bağlanır. Sonra isə özünü dərk edib kamillik səviyyəsinə çatanda ruh maddi aləmdən ayrılır. Yüksək məqama çatan ruh yenidən İlahi aləmə qovuşur. Şair bu əsərdə ruhun bədənə daxil olub oranı tərk etdiyi ana qədər keçdiyi sınaqları və bədəndə kamilləşdiyini göstərir.

Füzuli ruhun kamilliyə çatması üçün mütləq onun əzab-əziyyət çəkməsini bildirir və kamilliyə bədənsiz çatmağın mümkün olmadığını qeyd edir. "Mətləül-etiqad" və "Səhhət və mərəz" əsərlərində biz bunun şahidi oluruq, ruh bədənə daxil olandan əzab-əziyyət çəkir, hətta qarşıdakı çətinliyin olacağını bilsə də yenə öz yolundan əl çəkmir, ruhu kamilləşdirən isə eşqdir, İlahi eşq. Aşiq öz sevgilisinə, yəni yaradanına qovuşmaq üçün bütün çətinliklərə dözür. Yalnız aşiqlə məşuq bir-birindən ayrılmazdı, çünki o, Yaradanın zərrəsi olduğunu dərk edir, hər şeyin Tanrı tərəfindən yaradıldığını bildiyi üçün maddi dünyadan əl çəkir və öz yaradanı ilə təkbətək qalır, özünü unudur, təkcə yaradanı düşünür. Bu həqiqətə qovuşmaq mərhələsidir. Bu şəxslər kamil şəxslərdir. Bu səviyyəyə peyğəmbərlər, imamlar gedib çatır. Kamillik zirvəsinə hər bir insan gedib çata bilmir, çünki hamı eyni ağıla sahib deyil, həyatı eyni dərk etmir. İnsanın ömürü əbədi deyi, bədəndə nizam pozulduqda insan ölümlə üz-üzə gəlir. Bədən ölsə də ruh ölməzdir, əbədidir, İlahi eşqin köməyi ilə yenidən Tanrıya qovuşur. Bədəndəki həyat ruh üçün sınaqdı, ruh bir növ orada həbsdədi, nə qədər qafildir bədən ona xoş gəlir, elə ki kamilləşir, artıq həbsdən azad olmağa çalışır. Füzuli maddi aləmin insan şüurundan asılı olmayaraq mövcud olduğunu, hər şeyin Tanrı tərəfindən yaradıldığını qəbul etmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Bayramlı Z. Füzuli və çağdaş ədəbi-nəzəri fikir. Bakı:Elm, 2010, 148 s.*

*2. Məhəmməd Füzuli. Əsərləri.Altı cilddə V cild. Bakı: "Şərq-Qərb", 2005,224s.*

*3. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: "Şərq-Qərb", 2006, 328 s.*

*4. Mir Cəlal Füzuli sənətkarlığı. Monoqrafiya, III nəşr. Bakı:Kaşqari,2007, 357s*

*5. Nəsib Cünşüdoğlu. Füzulinin sənət və mərifət dünyası. BakıTehran 1997, 386*

*6. Qasımzadə Fuad. "Qəm karvanı", yaxud zülmətdə nur. Bakı: Azərnəşr, 1968, 360 s.*

*7. Xəlilov S. Füzuli ədəbi estetikası. Bakı: Adiloğlu, 2004, 418 s.*

## XÜLASƏ

Məqalədə Azərbaycanın görkəmli şair, filosof və mütəfəkkiri Məhəmməd Füzulinin "Mətləül-etiqad" və "Səhhət və Mərəz" əsərlərində ruh və onun insan həyatında rolu araşdırılmışdır. Şair bu fəlsəfi əsərlərində yaradılış haqqında, aləmin və insanın yaradılması, insanın vəzifələri, ruh və ölüm, ruhun ölməzliyi haqqında fəlsəfi baxışları, düşüncələrini əks etdirmişdir. Füzuli insanın mənşəyinin ruh və bədəndən ibarət olduğunu və Tanrının əvvəl ruhu, sonra cismləri yaratdığını, bədən formalaşandan sonra ruhun ora daxil olduğunu göstərmişdir.

**Açar sözlər:** *ruh, bədən, Tanrı, yaradılış, ölüm, maddi aləm, İlahi aləm.*

**Рахила Гурбанова**
***АДПУ Кафедра философии и социальных***
***Наук преподаватель***
***E-mial: rahila.qurbanova@mail.ru***

## Мухаммад Физули «Маттул-этикад» и «Здоровье и болезнь». существование души в его произведениях и роль души в жизни человека

## РЕЗЮМЕ

В статье рассматривается дух и его роль в жизни человека в произведениях «Матлауль-этикад» и «Здоровье и болезнь» выдающегося поэта, философа и мыслителя Азербайджана Мухаммада Физули. В своих философских произведениях поэт отразил свои философские взгляды и мысли о тво-

рении, сотворении мира и человека, обязанностях человека, душе и смерти, бессмертии души. Физули показал, что происхождение человека состоит из души и тела и что Бог сначала создал душу, а затем тело, а после того, как тело образовалось, в него вошла душа.

**Ключевые слова:** *душа, тело, Бог, творение, смерть, материальный мир, Божественный мир.*

**Rahila Gurbanova**
***ADPU Department of Philosophy and Social Sciences teacher***
***E-mail: rahila.qurbanova@mail.ru***

**Muhammad Fuzuli's "Mattul-etiqad" and "Health and disease" the existence of the soul in his works and the role of the soul in human life**

**SUMMARY**

The article examines the spirit and its role in human life in the works "Matlaul-etiqad" and "Health and Disease" by the prominent poet, philosopher and thinker of Azerbaijan, Muhammad Fuzuli. In his philosophical works, the poet reflected his philosophical views and thoughts about creation, the creation of the world and man, the duties of man, the soul and death, and the immortality of the soul. Fuzuli showed that the origin of man consists of soul and body, and God first created the soul and then the bodies, and after the formation of the body, the soul entered it.

**Keywords:** *soul, body, God, creation, death, material world, Divine world.*